

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 149 (23.060)

9 avqust 2018-ci il, cümə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 8-də Bəhreyn Krallığının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Ebrahim Yusuf Al-Abdullanın etimadnaməsini qəbul edib.

Ebrahim Yusuf Al-Abdulla etimadnaməsini Prezident İlham Əliyevə təqdim edib.

Söhbət zamanı dövlətimizin başçısı ölkələrimizin suverenliyi, müstəqilliyi, ərazi bütövlüyü məsələlərində dəstəklədiyini, BMT, İslam Əməkdaşlıq Təşkilatı və digər qurumlarda həmrəylik göstərdiyini məmnunluqla qeyd edib.

* * *

Prezident İlham Əliyev avqustun 8-də Şri-Lanka Demokratik Sosialist Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Məhəmməd Şərif Anisin etimadnaməsini qəbul edib.

* * *

Dövlətimizin başçısı avqustun 8-də Koreya Xalq Demokratik Respublikasının ölkəmizdə yeni təyin olunmuş səfiri Kim Hen Cunun etimadnaməsini qəbul edib.



İcmal

## Tarixi dövlətçilik ənənələrimizin saxlanc yeri, diversifikasiya olunmuş iqtisadiyyatını formalaşdıran Naxçıvan bütün sahələr üzrə əhəmiyyətli nailiyyətlərə imza atır

### Ötən ayın ümumi mənzərəsi də bir daha belə deməyə əsas verir ki, muxtar respublikada hərtərəfli inkişafa nail olunub

***Heydər Əliyev ideallarına sədaqəti ilə seçilən Naxçıvan Muxtar Respublikasının davamlı iqtisadi yüksəlişi, müasir dövrün tələblərinə uyğun idarəetmə mexanizmi və aparılan məqsədyönlü, ardıcıl siyasət nəticəsində bütün sahələrdə yeni-yeni nailiyyətlər əldə edilir. Bu uğurlar muxtar respublikanın hərbi təhlükəsizlik sisteminin qurulmasında da özünü göstərir. Müasir dünya orduları səviyyəsinə və əməliyyat-taktiki baxımdan yüksək döyüş qabiliyyətinə malik olan Əlahiddə Ümumqoşun Ordunun strateji yüksəkliklərdə etibarlı müdafiə sistemi qurması bu baxımdan diqqəti cəlb edir.***

Bu ilin may ayında ordumuzun ön xəttin dövlət sərhədi boyu 26 kilometr məsafəni əhatə edən əməliyyatı nəticəsində 7 kilometrədək dərinlikdə mühüm əhəmiyyətə malik hakim yüksəklikləri ələ keçirməsi, Şərur rayonunun işğal altındakı Günnüt kəndini azad etməsi və nəticədə, düşmənin yaşayış məntəqələrini və mühüm strateji yollarını nəzarətində saxlaması onun qüdrətinin növbəti göstəricisidir.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev bu mühüm hadisəni ***"Uğurlu Naxçıvan əməliyyatı"*** adlandırıb.

İyulun 3-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov Günnüt kəndindəki hərbi hissədə olub, burada xidmət keçən əsgər və zabitlərlə görüşüb.

Ali Məclisin Sədri əsgərləri salamlayıb, Azərbaycan Xalq Cümhuriyyəti və Silahlı Qüvvələrinin 100 illiyi münasibəti ilə şəxsi heyəti təbrik edib. Ali Məclisin Sədri deyib: ***"Ordu quruculuğu sahəsində həyata keçirilən tədbirlər Naxçıvan Muxtar Respublikasında da ardıcıl və sistemli şəkildə icra olunmaqdadır. Əlahiddə Ümumqoşun Ordu və Silahlı Qüvvələrimizin muxtar respublika ərazisindəki birləşmə və hissələri böyük təşkilatlanma və inkişaf yolu keçmiş, şəxsi heyət peşəkarlığını artırmışdır. Keçirilən hərbi əməliyyatlar onu deməyə əsas verir ki, muxtar respublikada torpaqlarımızı etibarlı müdafiə edən və hər an işğal altındakı torpaqlarımızı azad etməyə qadir olan güclü ordu formalaşıb. Bu yaxınlarda Əlahiddə Ümumqoşun Ordu tərəfindən Günnüt kəndi və ətraf ərazilərin nəzarət altına alınması bir daha göstərdi ki, əsgər və zabitlərimiz qarşıya qoyulan istənilən tapşırığı yerinə yetirmək əzmindədir".***

Ali Məclisin Sədri mövqelərdə xidmətin təşkili ilə maraqlanıb, "Günnüt əməliyyatı"nda iştirak edən əsgər və zabitlərə hədiyyələr təqdim edib. Gətirilmiş müxtəlif ərzaq məhsulları hərbi hissələrin anbarlarına təhvil verilib.

Bu gün cəmiyyətimiz əmindir ki, Azərbaycanda, o cümlədən Naxçıvan Muxtar Respublikasında dövlətimiz əsgər və zabitlərimizin hərbi xidmət şəraiti ilə maraqlanır, onlardan qayğısını əsirgəmir. Ali Məclis Sədrinin dəfələrlə təmas xəttində olması da bunun bariz nümunəsidir. Muxtar respublika rəhbərinin əsgər və zabitlərimizlə hər görüşü onlarda çox böyük ruh yüksəkliyi yaradır, hərbçilərimiz qüdrətli dövlətimizin dəstəyini daim hiss edir, bu isə onların döyüş ruhunu yüksəldir.



Günnüt kəndinin və ətraf ərazilərin ordumuzun nəzarəti altına keçməsi bu torpaqlardan səmərəli istifadə etməyə imkan yaradıb. Sərhəddə yerləşən bu yerlərin etibarlı müdafiəsi, zəngin bitki örtüyü arıçılıqla, maldarlıq və heyvandarlıqla məşğul olanlar üçün çox əlverişlidir. Artıq Şərur rayonunun Günnüt kəndinin ərazisində bu imkanlardan səmərəli istifadə edirlər.

İyulun 3-də Ali Məclisin Sədri Günnüt kəndindəki arıçılarla görüşüb. Ali Məclisin Sədri arıçıları salamlayaraq deyib: ***"Vaxtilə Günnüt öz balı ilə məşhur idi. Bu gün ərazidən istifadə etmək üçün lazımi şərait yaradılıb. Torpaqlarımız müdafiə olunur, yeni yol çəkilib. Bu torpaqlar kənd təsərrüfatı üçün yararlıdır. Arıçılar və təsərrüfatla məşğul olanlar bu imkanlardan lazımınca istifadə etməlidirlər".***

Ali Məclisin Sədri Günnüt kəndində bundan sonra da təsərrüfat sahibləri üçün hərtərəfli şəraitin yaradılacağını bildirib, arıçılara təşəkkür edib.

Bu gün muxtar respublikamızda tarixi abidələrin bərpası diqqət mərkəzində saxlanılır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Qarabağlar Türbə Kompleksinin bərpası və tədqiq olunması haqqında" 2016-cı il 4 iyul tarixli Sərəncamına uyğun olaraq Kəngərli rayonunun Qarabağlar kəndindəki türk-islam mədəniyyətinin nadir nümunələrindən olan Qarabağlar Türbə Kompleksi elmi və tarixi əsaslarla bərpa edilib.

İyulun 5-də Qarabağlar Türbə Kompleksinin bərpadan sonra istifadəyə verilməsi münasibətilə keçirilən tədbirdə Ali Məclisin Sədri çıxış edərək deyib: ***"Muxtar respublika ərazisindəki tarixi abidələr – qalalar, saraylar və türbələr dövlətçilik tariximizlə birbaşa bağlıdır. On ikinci əsrdə Azərbaycan Atabəylər dövləti paytaxt şəhər kimi Naxçıvanda mədəniyyətin, xüsusilə Əcəmi Naxçıvani sənətinin inkişafına təkan vermiş, dünya əhəmiyyətli abidələr yaradılmışdır. Açılışına toplaşdığımız Qarabağlar Türbə Kompleksi də Əcəmi Naxçıvani memarlıq məktəbinin davamı, görkəmli memar Əhməd Naxçıvani yaradıcılığının nümunəsi olmaqla bugünkü və gələcək nəsillərə təqdim etdiyimiz dövlətçilik irsimiz və mədəni sərvətimizdir. Abidələr o vaxt tarixin predmetinə çevrilirlər ki, onlar bərpa və tədqiq olunsunlar. Bu gün biz abidələri təkcə mədəni irsimiz kimi yox, həm də dövlətçilik tariximizin bir hissəsi kimi öyrənməliyik".***

Ali Məclisin Sədri "Naxçıvan Muxtar Respublikasına xidmətlərə görə" və "Rəşadətli əməyə görə" nişanlarını və vəsiqələrini təltif olunanlara təqdim edib, Qarabağlar Türbə Kompleksinin bərpaçılarına hədiyyələr verib.

Sonra Ali Məclisin Sədri və tədbir iştirakçıları Qarabağlar Türbə Kompleksinə baxıblar. Ali Məclisin Sədri kompleksin internet saytının hazırlanması və məlumatlarla zənginləşdirilməsi, onun muzeylər şəbəkəsinə daxil edilməsi, abidə haqqında elmi araşdırmaların aparılması, monoqrafiya və kitabların yazılması barədə tapşırıqlar verib.

Beləliklə, Azərbaycanın qədim tarixinin bir parçası, canlı şahidi olan dünya əhəmiyyətli möhtəşəm abidəyə yenidən həyat bəxş edilib. Bu məqamda qeyd edək ki, şanlı dövlətçilik tariximizin nümunəsi olan həmin memarlıq incisi tarixə qovuşmaq üzrə idi. Muxtar respublika rəhbərinin diqqət və qayğısı sayəsində həmin abidə də Əlincəqala, Möminə xatın, Gülüstan və ümumilikdə, 70-ə yaxın tarix və mədəniyyət abidəsi kimi bərpa olunaraq Azərbaycan xalqına ərməğan edilib. Onu da deyək ki, türbə kompleksi bərpa olunduğu müddətdə Ali Məclisin Sədri dəfələrlə Qarabağlar kəndinə gələrək görülən işlərlə yerindəcə maraqlanıb, işlərin lazımi səviyyədə aparılması üçün müvafiq tapşırıqlar verib. Bu, dövlətimizin tarixi keçmişimizə göstərdiyi böyük diqqətin növbəti nümunəsidir. Bu diqqət Azərbaycanın dövlətçilik tarixinin simvolu olan, lakin yox olmağa üz tutmuş abidələrinə göstəriləndə isə daha möhtəşəm olur.

Kəngərli rayonunun Qıvraq qəsəbəsi aparılan kompleks quruculuq işlərindən sonra müasir görkəm alıb. İstifadəyə verilən sosial obyektlər, yaradılan istehsal müəssisələri qəsəbənin simasını tamamilə dəyişib, sakinlərin rahat yaşayışı təmin olunub, məskunlaşma artıb. Həyata keçirilən tədbirlərin davamı olaraq bu il Qıvraq qəsəbəsində gənc ailələr üçün zirzəmi ilə birlikdə 7 mərtəbədən, 48 mənzildən ibarət yeni yaşayış binası tikilir.

İyulun 5-də Ali Məclisin Sədri yaşayış binasında görülən işlərlə tanış olub.

Muxtar respublikada ordu quruculuğu sahəsində görülən işlər içərisində hərbi qulluqçuların mənzil-məişət şəraitinin yaxşılaşdırılması xüsusi yer tutur. Hərbi hissələrdə istifadəyə verilən yeni yaşayış binaları zabit-gizir ailələrinin rahat yaşayışını təmin edir. Bu il də Kəngərli rayonunun Qıvraq qəsəbəsindəki hərbi hissədə zabit-gizir ailələri üçün 44 mənzildən ibarət 5 mərtəbəli yeni yaşayış binası tikilir.

İyulun 5-də Ali Məclisin Sədri binada aparılan tikinti işləri ilə maraqlanıb.

Muxtar respublikada nəqliyyatın inkişafı sahəsində kompleks tədbirlər görülür. Həyata keçirilən tədbirlərin nəticəsidir ki, Naxçıvanın bütün yaşayış məntəqələri marşrutlarla təmin olunub. Hazırda muxtar respublikada 139 marşrut xəttində 400-ə yaxın avtobusla sərnişindaşıma xidməti həyata keçirilir. Bütün bunlar da əhalinin rahat və təhlükəsiz hərəkətinin təmin olunmasına imkan verir. Görülən işlər çərçivəsində iyulun 12-də Naxçıvan Şəhər Nəqliyyat İdarəsinə 5 yeni avtobus təqdim olunub.

Ali Məclisin Sədri bununla əlaqədar keçirilən tədbirdə avtobusların xəttə buraxılması və yeni iş yerlərinin açılması münasibətilə kollektivi və sürücüləri təbrik edib, açarları sürücülərə təqdim edib, avtobuslara baxıb.

Bu gün hər bir muxtar respublika sakini ulu öndərimiz Heydər Əliyevin siyasi xəttinə sədaqət nümayiş etdirərək qədim diyarın inkişafına öz töhfəsini verir. Dövlətinə və xalqına sədaqətlə xidmət edən vətənpərvər insanların əməyi isə daim yüksək qiymətləndirilir, onlar ölkəmizin müxtəlif orden, medal və fəxri adları ilə təltif olunurlar. İyulun 13-də Naxçıvan Muxtar Respublikasının Ali Məclisində Azərbaycan Respublikasının orden və medallarının, eləcə də Azərbaycan Respublikasının fəxri adlarının döş nişanlarının və vəsiqələrinin təqdimat mərasimi keçirilib.

Ardı 2-ci səhifədə

Ali Məclisin Sədri Azərbaycan Respublikasının orden və medallarını, Azərbaycan Respublikasının fəxri adlarının döş nişanlarını və vəsiqələrini təltif olunanlara təqdim edib.

Naxçıvan Muxtar Respublikasının sürətli sosial-iqtisadi inkişafı bu ilin birinci yarısında da davam edib. Məhz bunun nəticəsidir ki, birinci yarımildə ümumi daxili məhsul istehsalı ötən ilin müvafiq dövrünə nisbətən 1,4 faiz artaraq 1 milyard 246 milyon manatdan çox olub. İstehsal olunan sənaye məhsulunun 96 faizə yaxını qeyri-dövlət sektorunun payına düşməsi sahibkarlığa göstərilən yüksək dövlət qayğısının təzahürüdür. Cari ilin ötən dövrü ərzində fəaliyyətə başlayan yeni sənaye müəssisələrində 10 növdə 163 çeşiddə məhsulun istehsal olunması daxili bazarda yerli istehsalın çəkisini xeyli artırıb və qiymətlərin tənzimlənməsinə şərait yaradıb. Muxtar respublikada qızıl-gümüş zinət əşyaları, plastik boru, profil və aksesuarlar, istixana kompleksi, heyvandarlıq, arıçılıq, quşçuluq, balıqçılıq təsərrüfatlarını əhatə edən 5-i özəl investisiyalı olmaqla, 29 istehsal və xidmət sahəsinin yaradılması, Sahibkarlığa Kömək Fondu tərəfindən 23 layihənin maliyyələşdirilməsinə 5 milyon 735 min 800 manat həcmində güzəştli kreditlərin ayrılması, 12 ailə təsərrüfatına 145 min manat dövlət maliyyə dəstəyinin göstərilməsi də sahibkarlığın inkişafı üçün stimullaşdırıcı tədbirlərin həyata keçirildiyini təsdiq edir. Bu dövrdə muxtar respublikada infrastruktur quruculuğu tədbirləri davam etdirilib, bütün maliyyə mənbələri hesabına əsas kapitala 548 milyon manata yaxın vəsait yönəldilib, tikinti və ya yenidənqurmadan sonra 93 obyekt istifadəyə verilib. 1364 yeni iş yerinin açılması, bunun da 98,3 faizinin daimi iş yerlərinin olması əhalinin məşğulluğunun artırılması və sosial rifah səviyyəsinin yüksəldilməsi istiqamətində görülən işlərin tərkib hissəsidir. Ötən 6 ayda muxtar respublikaya 195 min 886 turist gəlib, iqtisadi və sosial sahələrdə qazanılmış uğurlar demoqrafik vəziyyətin daha da yaxşılaşmasına səbəb olub, əhalinin sayı 454 min nəfəri ötüb.

Muxtar respublikanın inkişafının yüksələn xətt üzrə davam etdiyini göstərən bu və digər əhəmiyyətli faktlar iyulun 14-də beşinci çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin səkkizinci sessiyasında da qeyd olunub.

Sessiyada məruzə ilə çıxış edən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov deyib: ***"2018-ci ilin birinci yarısında Naxçıvan Muxtar Respublikasında sosial-iqtisadi həyatın bütün sahələrində dinamik inkişaf qorunub saxlanmışdır. Bu inkişafın təməlində ümummilli lider Heydər Əliyevin 1969-cu ilin 14 iyulundan əsasını qoyduğu quruculuq xəttinin davam etdirilməsi dayanır. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev cari ilin may ayında Naxçıvan Muxtar Respublikasına səfəri zamanı görülmüş işlər barədə demişdir: "Naxçıvan abadlaşır, gözəlləşir, çox böyük quruculuq, yaşıllaşdırma işləri aparılır. Binalar təmir olunur, yeni gözəl binalar tikilir. Naxçıvanın uğurlu inkişafı ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır".***

Ali Məclisin Sədri 2018-ci ilin birinci yarısında Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafında əməyi, sabitliyin və təhlükəsizliyin qorunmasında xidməti olanlara təşəkkürünü bildirib.

Geniş turizm potensialına malik olan Şahbuz rayonunun Ağbulaq kəndinin əlverişli təbii-coğrafi şəraiti burada turizmin bir çox növünün inkişafına imkan verir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2018-ci il 31 yanvar tarixli Sərəncamı ilə təsdiq edilən "2018-2022-ci illərdə Naxçıvan Muxtar Respublikasında turizmin inkişafına dair Dövlət Proqramı"na uyğun olaraq Ağbulaqda kənd və dağ-xizək turizminin inkişafı üçün kompleks işlər görülür. İyulun 17-də Ağbulaq kəndində Xizək Mərkəzinin təməlatma tədbiri olub.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov və Fransanın "MND" şirkətinin mühəndisi Xavier Goya beton qarışığını bünövrəyə tökərək mərkəzin təməlini qoyublar.

Ali Məclisin Sədri tikinti işləri aparılarkən keyfiyyət amilinin əsas götürülməsi və mühəndis-texniki tələblərə əməl edilməsi, təbiətə ziyan vurulmaması və yaşıllıqların qorunması barədə tapşırıqlar verib.

Həmin gün Ali Məclisin Sədri Ağbulaq kəndində turizmin inkişafı sahəsində həyata keçirilən digər tədbirlərlə də maraqlanıb, abadlaşan kənd evlərində olub, sakinlərlə görüşüb, kənddə aparılan abadlıq işlərinin davam etdirilməsi, yaradılan şəraitdən səmərəli istifadə olunması və payız aylarında iməciliklərin keçirilməsi ilə bağlı tapşırıqlar verib.

Bu gün muxtar respublikada aqrar sahədə kompleks islahatlar həyata keçirilir, hər il Naxçıvana yeni kənd təsərrüfatı texnikaları alınıb gətirilir.

İyulun 21-də Ali Məclisin Sədri "Naxçıvan Aqrolizinq" Açıq Səhmdar Cəmiyyəti tərəfindən alınıb gətirilən yeni kənd təsərrüfatı texnikalarına baxıb.

Məlumat verilib ki, bu il muxtar respublikaya 79 yeni texnika və avadanlıq alınıb gətirilib.

Bu gün muxtar respublikada tam kəsintisiz telekommunikasiya sistemi mövcuddur. Bütün yaşayış məntəqələri genişzolaqlı sabit və 4-cü nəsil mobil internet xidmətləri ilə təmin edilib. 2010-cu ildən muxtar respublika ərazisində mövcud telefon sisteminin rekonstruksiyasına başlanılıb. Bu günə qədər layihənin 4 mərhələsi başa çatdırılıb. Ordubad rayonu ərazisində mövcud avtomat telefon stansiyalarının rekonstruksiyası da bu sahədə görülən işlərin davamıdır.

İyulun 27-də Ordubad rayonunda Rabitə Evi və Yeni Nəsil Telekommunikasiya Sistemi istifadəyə verilib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov və "Huawei" şirkətinin Mərkəzi Asiya və Qafqaz ölkələri üzrə vitse-prezidenti James Chen açılışı bildirən lenti kəsiblər.

Ali Məclisin Sədri Ordubad rayonunda Rabitə Evinin və 11 min 300-dən artıq nömrə tutumu olan 35 yeni nəsil telefon stansiyasının istifadəyə verilməsini əlamətdar hadisə kimi dəyərləndirib, bu münasibətlə Ordubad rayonunun əhalisini təbrik edərək deyib: ***"Ölkəmizdə bütün sahələr inkişaf edir. Bu inkişafın nəticəsidir ki, Azərbaycan dünyanın inkişaf etmiş ölkələri sırasında öz layiqli yerini tutmuşdur. Ordubad rayonunda istifadəyə verilən yeni nəsil telefon stansiyaları dünya səviyyəli şirkət olan "Huawei" şirkətinin ən müasir avadanlıqları hesabına qurulmuşdur. Bu da ölkəmizin inkişafının göstəricisidir. Bu inkişafa isə ümummilli liderimiz Heydər Əliyevin müəyyənləşdirdiyi xəttin ölkə Prezidenti tərəfindən uğurla davam etdirilməsi nəticəsində nail olunmuşdur. Çünki ölkəmizdə iqtisadi inkişaf, sabitlik və dövlətin sosialyönümlü siyasəti olmasaydı, bu işləri həyata keçirmək də mümkün olmazdı".***

Sonra Ali Məclisin Sədri binada yaradılan şəraitlə maraqlanıb, Ordubad rayonu ərazisində qurulan Yeni Nəsil Telekommunikasiya Sistemini işə salıb.

Ali Məclisin Sədri bina ilə tanışlıqdan sonra kollektivlə görüşüb, yaradılan şəraitdən səmərəli istifadə olunması ilə bağlı müvafiq tapşırıqlar verib.

Ordubadda istər müasir binanın tikilib istifadəyə verilməsi, istərsə də yeni nəsil telekommunikasiya sistemlərinin qurulması muxtar respublikada rabitənin inkişafına göstərilən qayğının ifadəsidir. Artıq rayonun bütün yaşayış məntəqələrində insanlar ən müasir rabitə xidmətindən istifadə edəcəklər. Bu isə o deməkdir ki, Ordubadın timsalında muxtar respublikamızda, ümumilikdə, insan amilinə böyük dəyər verilir.

*Ötən ayın mənzərəsinə nəzər yetirdikdə bir daha əminlik yaranır ki, muxtar respublikada bütün sahələrdə hərtərəfli inkişaf təmin olunub. Bu inkişafın qədim diyarın bütün bölgələrini, hətta ən ucqar dağ kəndlərini belə, əhatə etməsi həyata keçirilən sosial-iqtisadi siyasətin əsas xəttini təşkil edir. Bu siyasətin strateji məqsədi isə sosialyönümlü, diversifikasiya olunmuş, özünüinkişaf qabiliyyətli iqtisadiyyatın qurulmasıdır. İnkişafın keyfiyyətcə yeni mərhələsi adekvat olaraq bütün sahələrdə modernləşməyə əsaslı təkan verib. Müasir Naxçıvan ulu öndərimizin dövlətçilik ideallarının işığında yaradıcı təfəkkürün real və möhtəşəm nəticələri əsasında ardıcıl olaraq davamlı şəkildə inkişaf edən bir diyar kimi şan-şöhrət qazanmaqda, bütün istiqamətlərdə zəfər yürüşünü davam etdirməkdədir.*

**Rauf KƏNGƏRLİ**

## Soyuducu anbarlar və istixana kompleksləri əhalinin keyfiyyətli meyvə-tərəvəz məhsulları ilə təmin edilməsində mühüm rol oynayır






***Yerli istehsalın inkişaf etdirilməsi ölkənin iqtisadi tərəqqisinə müsbət təsir göstərməklə daxili bazarın qorunmasında, xaricə valyuta axınının qarşısının alınmasında və idxaldan asılılığın azaldılmasında mühüm rol oynayır. Məhz bu amillər nəzərə alınaraq muxtar respublika iqtisadiyyatının bütün sahələrində dövlət texniki, maliyyə və innovasiya dəstəyi ilə yeni-yeni istehsal və xidmət sahələri istifadəyə verilir. Bunun nəticəsində də özəl sektorun, xüsusən də kənd təsərrüfatının daha da inkişafına səbəb olacaq layihələr reallaşdırılır. Dövlətin maliyyə dəstəyi ilə yaradılan belə istehsal və xidmət sahələri əhalinin keyfiyyətli yerli məhsullarla təmin edilməsinə şərait yaradır.***

Bu sırada kənd təsərrüfatı məhsullarının uzun müddət saxlanması üçün soyuducu anbar komplekslərini də qeyd etmək lazımdır. Bunun üçün yerli investisiyalar əsasında soyuducu anbarların ümumi tutumu 14 min 245 tona çatdırılıb. Bu anbarların yaradılması həm məhsulları qış dövründə istehlakçıya çatdırmağa, həm də ixracı daha da artırmağa imkan verir. Eyni zamanda bu anbarların hər biri yeni iş yerlərinin açılması ilə bərabər, əhalinin meyvə-tərəvəz məhsullarına olan tələbatının bütün fəsillərdə yerli istehsal hesabına ödənilməsində mühüm rola malikdir.

2018-ci ilin iyun ayından başlayaraq artıq meyvə-tərəvəz məhsullarının tədarükü, saxlanılması və satışı üzrə müasir soyuducu anbarlara meyvə və tərəvəzin qəbuluna başlanılıb. Tədarük dövrü başlayandan 1 avqust 2018-ci il tarixə soyuducu anbarlara kənd təsərrüfatı üzrə ixtisaslaşmış sahibkarların fəaliyyətinin stimullaşdırılması məqsədilə tələbatdan artıq istehsal edilmiş cəmi 2942,12 tona yaxın məhsul tədarük olunub. Bunun da 2875,83 tonu kartof, 4,28 tonu soğan, 27 tonu ərik, 14,23 tonu alma, 0,2 tonu sarımsaq, 13,35 tonu kələm məhsuludur. Hazırda soyuducu anbarlar tərəfindən kartof 25-40, soğan 25-35, alma isə 50-80 qəpiyə tədarük edilir.

Muxtar respublikada kənd təsərrüfatı məhsullarının uzun müddətə saxlanması üçün soyuducu anbar kompleksləri güzəştli kreditlər və sahibkarların özlərinin şəxsi vəsaiti hesabına tikilərək istifadəyə verilir. Bu məqsədlə Babək rayonunun Nehrəm kəndində tutumu 2500 ton olan soyuducu anbarın qurulması davam etdirilir.

Muxtar respublikada sahibkarlığın yeni mərhələyə qədəm qoyması nəticəsində ənənəvi fəaliyyət sahələrinə yeni innovasiyaların tətbiqi genişlənir. Belə gəlirli sahələrdən biri də istixana kompleksləridir. Bu məqsədlə davamlı tədbirlər həyata keçirilir, sahibkarlara dövlət maliyyə dəstəyi göstərilir, yeni istixana kompleksləri yaradılır. Göstərilən diqqətin nəticəsində muxtar respublikada 129 min 162 kvadratmetr sahədə tərəvəz məhsullarının yetişdirilməsi üzrə ixtisaslaşdırılmış 22 istixana təsərrüfatı fəaliyyət göstərir.

Əhalinin qış aylarında faraş tərəvəz məhsullarına olan tələbatının ödənilməsi üçün müasir istixana komplekslərinin qurulması və mövcud sahələrin genişləndirilməsi istiqamətində cari ilin ötən dövrü ərzində Şərur rayonunun Arpaçay kəndində fiziki şəxs Abdulla Adıgözəlova istixana təsərrüfatını genişləndirmək üçün 50 min manat həcmində dövlət maliyyə dəstəyi göstərilib.

Cari ilin ötən dövrü ərzində istixana komplekslərində istehsal olunan 358 ton tərəvəz məhsulları istehlak bazarını davamlı təchiz edib.

"İstehlak Mallarının Ekspertizası Mərkəzi" MMC-nin laboratoriyası tərəfindən soyuducu anbarlara tədarük olunan və istixana komplekslərində yetişdirilən məhsullardan 35 halda orta nümunələr götürülərək keyfiyyət göstəriciləri təhlil edilib, 704 halda səyyar laboratoriya yoxlamaları aparılıb və göstəricilərin normativ-texniki sənədlərin tələblərinə cavab verdiyi müəyyənləşdirilib.

Muxtar respublikada bu kimi məsələlərin vacibliyinin lazımınca qiymətləndirilməsinin nəticəsidir ki, aqrar sahədə müsbət irəliləyişlər əldə olunub və bu istiqamətdə işlər uğurla davam etdirilir.

***Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin mətbuat xidməti***

***2018-ci ilin iyul ayında Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Komitəsinin fəaliyyət istiqamətləri üzrə işlər mütəşəkkilliklə davam etdirilmişdir.***

## İyul ayında 1982 daşınmaz əmlak obyekti plana alınıb

"Naxçıvan Muxtar Respublikasında torpaq münasibətlərinin tənzimlənməsi sahəsində əlavə tədbirlər haqqında" Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 2 aprel tarixli Fərmanı ilə müəyyənləşdirilmiş vəzifələrin icrasının təmin edilməsi məqsədilə iyul ayı ərzində Şərur rayonunun Dəmirçi, Axura və Muğancıq-Müslüm, Babək rayonunun Zeynəddin, Araz və Nehrəm kəndlərində planaalma işləri aparılmış, 1982 daşınmaz əmlak obyekti plana alınmışdır.

Həmçinin Şərur rayonunun Ərəbyengicə, Qışlaqabbas, İbadulla, Vərməziyar və Tumaslı bələdiyyələrinin sərhəd xəritələrinə dair müvafiq yerquruluşu sənədləri elektron variantda hazırlanmış və torpaqların növləri üzrə uçotu aparılmış, Sədərək rayonunun Qaraağac bələdiyyəsinin mövcud mülkiyyət növləri üzrə torpaq sahələrinin elektron kadastr xəritəsi hazırlanmışdır. Ordubad rayonunda torpaqlardan səmərəli istifadə və onların mühafizəsinə dair monitorinqlər aparılmış, Aza və Üstüpü kəndlərində aşkar edilmiş qanun pozuntuları qanunvericiliyin tələblərinə uyğun aradan qaldırılmışdır.

İyul ayında muxtar respublika üzrə 396 daşınmaz əmlak obyekti qeydiyyata alınmışdır. Bu dövrdə ilkin qeydiyyat, bölünmə və birləşmə nəticəsində yeni yaranmış 47 daşınmaz əmlak obyektinə ünvan verilmiş, 77 torpaq sahəsinin planölçüsü dövlət kadastr kitablarında qeydiyyata alınmış, 11 əmlak real bazar dəyərinə uyğun olaraq qiymətləndirilmiş, 124 əmlakın bazar dəyəri məlumat bankına daxil edilmişdir.

Vətəndaşlara səyyar xidmətin göstərilməsinin davamı olaraq 8 yaşayış məntəqəsində 31 vətəndaşa xidmət göstərilmişdir.

***Naxçıvan Muxtar Respublikası Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Komitəsinin mətbuat xidməti***

## Ötən ay uğurla başa vurulub

Muxtar respublikada dəmir yolu nəqliyyatından istifadə sahəsində ardıcıl tədbirlər görülür, müasir dəmir yolu infrastrukturu yaradılır. Yaradılan şəraitin nəticəsidir ki, cari ilin iyul ayında ayrı-ayrı tikinti təşkilatlarının ünvanına 7 min 980 ton müxtəlif təyinatlı yük daşınmışdır. Hesabat dövründə Ordubad-Şərur və Şərur-Culfa istiqamətlərində hərəkət edən yük-sərnişin qatarları vasitəsilə 12 min 167 sərnişin daşınmışdır.

Vaqonlarda və lokomotivlərdə cari təmir işləri aparılmış, baş və stansiya yollarına baxış keçirilmişdir. Xidməti ərazidəki bina, tikili və qurğular, eləcə də istismarda olan lokomotiv və sərnişin vaqonları, maşın-mexanizmlər mütəmadi yoxlanılmış, yanğına qarşı texniki müayinə aparılmış, nöqsanlar aradan qaldırılmışdır.

***"Naxçıvan Dəmir Yolları" Məhdud Məsuliyyətli Cəmiyyəti***

# Payız-qış mövsümünə hazırlıqla bağlı görülən işlər və qarşıda duran vəzifələr müzakirə edilib



*Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyində 2018-2019-cu illərin payız-qış mövsümünə hazırlıq və qarşıda duran vəzifələrlə bağlı müşavirə keçirilib. Tədbiri Naxçıvan Muxtar Respublikasının kənd təsərrüfatı naziri Bəhruz Bayramov açaraq məruzə ilə çıxış edib.*

Bildirilib ki, muxtar respublikada taxılçılıq, tərəvəzçilik, meyvəçilik, üzümçülük və digər sahələrin inkişafı stimullaşdırılır, fermerlərə güzəştli kreditlərdən və aqrolizinq xidmətlərindən daha geniş istifadə imkanları yaradılır, əkin sahələri genişləndirilir. Eyni zamanda ailə-fermer təsərrüfatlarına yeni innovasiyaların tətbiqi, intensiv metodlara əsaslanan müasir təsərrüfatların yaradılmasına dövlət dəstəyi davam etdirilir. Bunun nəticəsidir ki, toxumçuluq və tingçiliklə məşğul olan təsərrüfatlara subsidiyaların ödənilməsi, yanacaq-sürtkü materiallarına görə verilən yardımların 25 faiz artırılaraq 50 manata çatdırılması, istifadə olunan gübrələrin və herbisidlərin 70 faizinin pulsuz verilməsi, satılan texnikaların dəyərinə 40 faiz güzəşt tətbiq edilməsi kənd təsərrüfatı ilə məşğul olan sahibkarlara güclü stimul verib.

Nazir qeyd edib ki, 2018-2019-cu illərin payız-qış mövsümünə hazırlıqla əlaqədar nazirlik tərəfindən müvafiq tədbirlər həyata keçirilib. 2019-cu ilin məhsulu üçün cari ilin payızında muxtar respublikada 32 min hektar sahədə şum aparılaraq taxıl əkini keçirilməsi nəzərdə tutulur. Bu işlərin mütəşəkkil və optimal müddətdə təşkili üçün nazirliyin Texniki nəzarət və aqroservis sektoru tərəfindən texnikaların sazlığı vəziyyəti öyrənilib, lazım olan ehtiyat hissələrinin alınıb gətirilməsi və sahibkarlara çatdırılması üçün tədbirlər həyata keçirilib. Hazırda muxtar respublikada 1957-si yeni olmaqla, ümumilikdə, 3167 kənd təsərrüfatı texnikası mövcuddur ki, ondan da 138-i "Naxçıvan Aqrolizinq"Açıq Səhmdar Cəmiyyəti və onun rayon bazalarında, qalan 3029-u isə sahibkarların xüsusi mülkiyyətindədir. Payızlıq taxıl əkini ilə əlaqədar şum və səpin aparmaq üçün 934 təkərli, 103 tırtıllı, 105 taxılsəpən, 409 kotan, 55 çizel və şırımaçan, 38 toxumtəmizləyən, 306 lafet saz vəziyyətə gətirilib.

Diqqətə çatdırılıb ki, payızlıq taxıl əkininin aparılması üçün muxtar respublikaya 6000-6500 ton toxum tələb olunur. Tələb olunan toxum, əsasən, torpaq mülkiyyətçilərinin özlərində və toxumçuluq təsərrüfatlarında mövcuddur. Hazırda muxtar respublikada fəaliyyət göstərən 5 toxumçuluq təsərrüfatında 422 tondan artıq toxum təmizlənib və bu işlər davam etdirilir. Bundan əlavə, Azərbaycanın digər rayonlarının toxumçuluq təsərrüfatlarından muxtar respublikanın torpaq-iqlim şəraitinə uyğun elit və I reproduksiyalı buğda və arpa toxumlarının gətirilməsi nəzərdə tutulur.

Heyvandarlıq təsərrüfatı haqqında məlumat verən kənd təsərrüfatı naziri bildirib ki, iribuynuzlu, xırdabuynuzlu heyvanların, quşların və arıların qışlaması ilə əlaqədar nazirliyin mütəxəssisləri tərəfindən yerlərdə maarifləndirici tədbirlər keçirilir.

Qeyd olunub ki, beşinci çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin altıncı sessiyasında verilmiş tapşırıqların icrası ilə bağlı nazirliyin tədbirlər planı təsdiq edilib və icrası diqqət mərkəzində saxlanılır.

Sonra məruzə ətrafında çıxışlar dinlənilib.

* * *

***Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyində payız-qış mövsümünə hazırlıq və qarşıda duran vəzifələrlə əlaqədar keçirilən kollegiya iclasında nazir Natavan Qədimova çıxış edib.***

Bildirilib ki, hazırda nazirliyin tabeliyində 30 muzey və muzeytipli müəssisə, 3 dövlət teatrı, 2 dövlət filarmoniyası, 1 musiqi kolleci, 26 uşaq musiqi, incəsənət və bədii sənətkarlıq məktəbi, 2 respublika əhəmiyyətli kitabxana, 400-dən çox klub, mədəniyyət evi, kitabxana və kitabxana filialları, mədəni-maarif müəssisələri və digər mədəniyyət obyektləri fəaliyyət göstərir. Bu mədəniyyət müəssisələri payız-qış mövsümündə dayanıqlı elektrik enerjisi və istilik sistemi ilə təmin olunub. Mövsümlə əlaqədar bu işlərin planlaşdırılması və nəzarətdə saxlanılması diqqət mərkəzindədir.

Diqqətə çatdırılıb ki, Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin tabeliyində olan 514 müəssisə və təşkilatdan 1-i ümumiləşdirilmiş havalandırma, 120-si qazanxana və kombitipli, 257-si ümumi istilik sistemi ilə, 88-i dizel yanacağı, 5-i maye qaz, 7-si isə təbii qazla qızdırılır.

Ümumi olaraq Naxçıvan şəhəri üzrə 28, Şərur rayonu üzrə 90, Ordubad rayonu üzrə 1, Şahbuz rayonu üzrə 47, Babək rayonu üzrə 46, Kəngərli rayonu üzrə 1, Culfa rayonu üzrə 38, Sədərək rayonu üzrə isə 6 müəssisə ümumi istilik sisteminə qoşulmuşdur. Mədəniyyət müəssisələrinin payız-



qış mövsümünə hazırlığı ilə əlaqədar olaraq lazımi yanacaq və mal-materiallardan, o cümlədən 30 min 370 litr dizel yanacağı, 72 kvadratmetr şüşə, 85 ədəd şifer, 600 kiloqram maye qaz, 398 metr polietilen, 43 ədəd neft sobası, 172 ədəd boru və 86 ədəd dirsək alınacaqdır.

Bildirilib ki, bərpa edilmiş və yeni istifadəyə verilmiş mədəniyyət müəssisələri müasir istilik sistemi ilə təmin edilib. Nazir mədəniyyət müəssisələrində təhlükəsizlik qaydalarına ciddi riayət olunması, elektrik enerjisindən qanunsuz istifadəyə yol verilməməsi ilə bağlı konkret tapşırıqlar verib.

Qeyd edilib ki, bununla bağlı Mədəniyyət Nazirliyinin tabeliyində olan muxtar respublika tabeli müəssisələrdə, şəhər (rayon) mədəniyyət şöbələrində və tabeliyində olan müəssisələrdə istilik sistemlərinin, həmçinin elektrik naqillərinin vəziyyəti əvvəlcədən yoxlanılmalı, nasazlıqlar aradan qaldırılmalıdır.

Sonra çıxışlar olub.



Ordubad Rayon İcra Hakimiyyətində keçirilən müşavirədə rayon İcra Hakimiyyətinin başçısı Elşad Məmmədov çıxış edərək bildirib ki, rayonda ayrı-ayrı sahələrdə olduğu kimi, energetika sahəsində də həyata keçirilən kompleks tədbirlər əhalinin elektrik enerjisinə olan tələbatının ödənilməsinə və onun itkisiz olaraq yerlərə çatdırılmasına əlverişli şərait yaradıb.

Elektrik enerjisindən istifadə zamanı texniki itkinin normalara uyğun olaraq minimuma endirilməsi məqsədilə ötən müddətdə 91 dayaq basdırılıb, 8800 metr məsafədə yeni məftillər çəkilib və köhnə məftillər yenisi ilə əvəz olunub. Rayonda enerji itkisinin aşağı salınması və transformatorların yüklərinin bərabər bölünməsi üçün tədbirlər görülüb, 15 müxtəlif gücə malik transformator yarımstansiya elektrik dövrəsindən açılıb. Böyük gücə malik transformatorlar kiçik gücə malik transformatorlarla əvəz olunub.

Ordubad rayonunun bütün yaşayış məntəqələri fasiləsiz olaraq təbii qazla təmin olunur. Ötən müddətdə qəza xidmətində 545 müraciət qeydə alınıb və vaxtında aradan qaldırılıb. 35 mənzilə yeni qaz xətti çəkilib.

Qeyd olunub ki, rayon ərazisindəki daşıyıcı və paylayıcı qaz xətlərində təmir-bərpa işlərinin aparılması, korroziyaya uğrayan qaz borularının dəmir və polietilen borularla əvəz olunması, digər yenidənqurma, abadlıq işi ilə əlaqədar 8500 paqonometr dəmir borudan istifadə olunub.

Bildirilib ki, rayon üzrə bu ilin payız-qış mövsümündə 106 müasirtipli istilik sistemi fəaliyyət göstərəcək. Onlardan 77-si qazanxana, 29-u isə kombitipli istilik sistemləridir. İstilik sistemlərinin, qızdırıcı qurğuların, qaz cihazlarının və elektrik avadanlıqlarının vəziyyəti yoxlanılaraq baş verən nasazlıqlar aradan qaldırılır.

Rayonda telekommunikasiya şəbəkəsi yeni nəsil NGN tipli ATS-lərlə əvəz olunub, əlavə olaraq 6 çöltipli stansiya quraşdırılaraq ATS-lərin sayı 35-ə çatdırılıb. Yeni istifadəyə verilən Ordubad Rayon Rabitə Evində montaj tutumu 1792, internet tutumu 928 olan 1597 abonentə xidmət göstərən 576 sürətli internet istifadəçisi olan NGN tipli müasir avtomat telefon stansiyası fəaliyyət göstərir.

Sonra məruzə ətrafında çıxışlar dinlənilib.

* * *



Naxçıvan Neft və Qaz Məhsulları Təminatı Müəssisəsində də 2018-2019-cu illərin payız-qış mövsümünə hazırlıq və qarşıda duran vəzifələr müzakirə olunub. Bununla əlaqədar keçirilən yığıncağı giriş sözü ilə müəssisənin direktoru Behruz Əzimov açaraq bildirib ki, avqustun 4-də Naxçıvan Muxtar Respublikası Ali Məclisində 2018-2019-cu illərin payız-qış mövsümünə hazırlıq və qarşıda duran vəzifələrlə bağlı keçirilən müşavirədə Naxçıvan Neft və Qaz Məhsulları Təminatı Müəssisəsinə də bir sıra tapşırıqlar verilib. Həmin tapşırıqların icrasına uyğun olaraq, müəssisə və təşkilatları vaxtında yanacaqla təmin etmək məqsədilə Naxçıvan Neft və Qaz Məhsulları Təminatı Müəssisəsi Bakı Neft Bazası ilə bağlanmış müqaviləyə əsasən il ərzində 40 min ton A-92 avtobenzinin, 120 min ton dizel yanacağının, 20 min ton bitumun, 11 min ton mazutun, 1200 ton müxtəlif növ yağların, 5 min ton maye qazın muxtar respublikaya gətirilməsi nəzərdə tutulub.

Qeyd olunub ki, alınan yanacaq muxtar respublikaya İran İslam Respublikasının ərazisindən keçməklə və Bakı-Gürcüstan-Türkiyə marşrutları üzrə daşınır. 2018-ci ilin ilk 7 ayında Gürcüstan-Türkiyə xətti ilə 14 min 517,4 ton dizel yanacağı və 1160,9 ton A-92 markalı avtobenzin olmaqla, ümumilikdə, 15 min 678,3 ton neft məhsulları daşınıb. İran İslam Respublikasının ərazisindən keçməklə 62 min 37,7 ton dizel yanacağı, 15 min 910 ton A-92, 3 min 574,9 ton bitum, 10 min 982 ton mazut, 2 min 746 ton maye qaz, 192 ton müxtəlif növ yağlar olmaqla, ümumilikdə, 95 min 442,6 ton neft məhsulları gətirilib.

Vurğulanıb ki, müəssisə 2018-ci ilin 7 ayında ümumi dövriyyəsi 72 milyon 980 min manat olan 114 min 572 ton müxtəlif növ neft məhsulları satıb. Bu da 17 min 574,3 ton avtobenzin, 79 min 369 ton dizel yanacağı, 3 min 574,9 ton bitum, 10 min 80,3 ton mazut, 2 min 766,5 ton maye qaz, 192 ton müxtəlif növ yağlardan ibarətdir. Bəhs olunan dövrdə müəssisə satışdan 743 min manat mənfəət əldə edib ki, bu vəsaitdən 91 min 816 manat mənfəət vergisi hesablanaraq büdcəyə ödənilib.

Diqqətə çatdırılıb ki, boruların, nasosların, elektrik avadanlıqlarının saz vəziyyətdə olması daim nəzarətdə saxlanılır və lazımi tədbirlər görülür. Müəssisədə yanacaq ehtiyatı yaradılıb. Belə ki, bu günədək müəssisənin anbarlarında 1405 ton dizel yanacağı,1565 ton A-92 markalı avtobenzin, 866 ton mazut, 8 ton maye qaz ehtiyatı vardır.

Sonra məruzə ətrafında çıxışlar olub.

**Xəbərlər şöbəsi**

# Naxçıvan şəhərinin elektrik enerjisi ilə təminatı yüksək səviyyədədir

Muxtar respublikamızda aparılan qətiyyətli və ardıcıl siyasət nəticəsində bütün sahələrdə olduğu kimi, energetika sahəsində də böyük nailiyyətlər əldə edilib, şəhər və rayonlarda müasir enerji infrastrukturu yaradılıb. Əhalinin fasiləsiz və dayanıqlı elektrik enerjisi ilə təminatı məqsədilə ardıcıl tədbirlər həyata keçirilib. Yeni elektrik stansiyalarının tikilib istifadəyə verilməsi, köhnəlmiş enerji bloklarının yenidən qurulması və stansiyaların istismar rejimlərinin yaxşılaşdırılması bu istiqamətdə atılan mühüm addımlardır. Sevindirici haldır ki, bu gün muxtar respublikanın mərkəzindən ucqar dağ kəndinədək bütün ərazilərdə sakinlər keyfiyyətli elektrik enerjisi ilə təmin olunublar.

Paytaxt Naxçıvan şəhəri günügündən inkişaf edir, qurulan emal və istehsal müəssisələrinin sayı ilbəil daha da artır, məskunlaşma çoxalır. Bütün bunlar, təbii ki, öz növbəsində, elektrik enerjisinə tələbatı da yüksəldir. Təqdirəlayiq haldır ki, aidiyyəti təşkilatların səyi ilə bu sahədə ciddi problemlər yaşanmır, baş verən kiçik nöqsanlar da vaxtında öz həllini tapır. Ötən illərdə olduğu kimi, cari ilin 6 ayında da Naxçıvan Şəhər Elektrik Şəbəkəsi tərəfindən göstərilən xidmətin səviyyəsinin daha da yüksəldilməsi üçün məqsədyönlü işlər görülüb. Şəbəkədən aldığımız məlumata görə, bəhs olunan dövrdə yarımstansiyalara baxış keçirilib, aşkar olunan nöqsan və qəza halları vaxtında aradan qaldırılıb, əsaslı təmir işləri aparılıb. Elektrik enerjisi itkilərini azaltmaq məqsədilə Naxçıvan Dövlət Universitetinin ərazisində yerləşən 35/0,4 kilovoltluq 400 kilovat gücündə 1, Tumbul kəndində 10/0,4 kilovoltluq 630 kilovat gücündə 1, Qaraxanbəyli kəndi ərazisində 10/0,4 kilovoltluq 160 kilovat gücündə 1, "Cahan İnşaat" MMC-yə məxsus 320 kilovat gücündə 1, "Dizayn" MMC-yə məxsus 630 kilovat gücündə 2, 1000 kilovat gücündə 1 ədəd transformator şəbəkədən açılaraq ehtiyatda saxlanılıb.

Şəbəkə üzrə əhalinin elektrik enerjisi təchizatının keyfiyyətini yaxşılaşdırmaq üçün 84 ədəd elektrik hava xətti dirəkləri quraşdırılıb, 2,6 kilometr uzunluğunda yeni elektrik hava xətti çəkilib, 5,2 kilometrə qədər yararsız AS markalı naqillər yenilənib. Həmçinin qəzalı vəziyyətdə olan 56 elektrik hava xətti dirəyinə beton altlıqlar vurulub, əsaslı təmir işləri aparılıb. Gücü 100 kilovat olan 2 yarımstansiya əsaslı təmir olunaraq şəbəkənin balansına daxil edilib, 2 "Selskoy" tipli komplekt transformator paylayıcı stansiyası müasirləri ilə əvəz olunub. Bundan başqa, şəhərin ayrı-ayrı ərazilərində sakinlərin elektrik enerjisi ilə təminatını yaxşılaşdırmaq üçün müasir tələblərə cavab verən yeni yarımstansiyalar quraşdırılıb, müxtəlif uzunluqda elektrik hava xətləri yeraltı kabellərlə əvəzlənib.

Məlumatda o da bildirilir ki, Naxçıvan şəhərində əhali abonentlərinin ev və mənzillərində ön ödənişli smartkarttipli sayğacların qoyulması işləri cari ilin 6 ayında da uğurla həyata keçirilib. Bu dövr ərzində 541 ədəd belə sayğac quraşdırılaraq bu tip sayğacların sayı 21 min 864-ə çatdırılıb. Muxtar respublika paytaxtında elektrik enerjisindən qeyri-qanuni (hiss.: say-) ğacdankənar istifadə edilməsinin qarşısının alınması üçün mütəmadi reydlər keçirilib, əhali arasında maarifləndirici tədbirlər aparılıb. Ümumilikdə, hesabat dövründə Naxçıvan şəhəri üzrə 50 milyon 244 min kilovat-saat elektrik enerjisi sərf olunub, bunun müqabilində 4 milyon 196 min manat vəsait toplanıb ki, bu da verilmiş enerjinin dəyərinin 100 faizini təşkil edir.

Qeyd edək ki, son illərdə muxtar respublikada yeni elektrik stansiyaları tikilib istifadəyə verilib, yarımstansiyaların, elektrik verilişi şəbəkələrinin davamlı fəaliyyəti təmin olunub. Bu sahədə görülən işlərin nəticəsidir ki, elektrik enerjisinə tələbat daxili istehsal hesabına tam ödənilir, eyni zamanda ixrac olunur. Əldə edilən uğurlar muxtar respublikada enerji təhlükəsizliyinin təmin olunması sahəsində görülən işlərin bəhrəsidir.

**Nail ƏSGƏROV**

*Gənclər Paytaxtının gəncləri*

## Onlar nümunəvi fəaliyyətləri ilə seçilirlər

***Muxtar respublikamızda prioritet sahələrin inkişafına hesablanan istiqamətlərdən biri də dövlət gənclər siyasətidir. Bu siyasətin əsas məqsədi gənclərin intellektual səviyyəsinin artırılması, elmə, təhsilə yiyələnmələri, onların Azərbaycançılıq ideologiyasına, milli-mənəvi dəyərlərə, Vətənə, xalqa, dövlətə, dövlətçiliyə sədaqət ruhunda tərbiyə olunmaları, dövlət strukturlarında geniş təmsil edilmələri üçün hərtərəfli şəraitin yaradılmasıdır. Bütün bu məsələlərin həlli gənclərimizə göstərilən diqqət və qayğının, etimadın ifadəsidir. Aparılan məqsədyönlü gənclər siyasətinin nəticəsidir ki, Naxçıvan şəhəri bu il ölkəmizin Gənclər Paytaxtı seçilib. Hər bir naxçıvanlı gənc muxtar respublika paytaxtının bu adı daşımasından fəxarət hissi keçirir, qürur duyur.***



Gənclər Paytaxtının gəncləri bu gün fəallıqları ilə seçilir, müxtəlif dövlət strukturlarında təmsil olunur, səmərəli fəaliyyət göstərirlər. Onlardan biri də Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin əməkdaşı Azadə Cəfərovadır. Onunla söhbətimizdə müsahibimiz gənclərimizə göstərilən dövlət qayğısından ətraflı danışdı, ümummilli liderimiz Heydər Əliyevin ***“Hər bir Azərbaycan gənci hər şeydən çox, hər şeydən artıq müstəqil Azərbaycanın bu günü, gələcəyi haqqında düşünməlidir”*** fikrinin onun kimi digər naxçıvanlı gənclərin fəaliyyətlərində əsas məram olduğunu vurğuladı. Çalışdığı sahə haqqında söhbət açan Azadə deyir:

– İlk olaraq qeyd edim ki, bu işdə çalışmaq mənim üçün şərəfli və qürurvericidir. İnsanları baş verə biləcək təbii və texnogen xarakterli fövqəladə hallardan, xoşagəlməz hadisələrdən əvvəlcədən, yəni hadisə baş vermədən məlumatlandırmaq, bu cür hallarda düzgün davranış qaydalarını onlara aşılamaq, özlərinə və başqalarına düzgün ilk tibbi yardım göstərməyi öyrətmək çox əhəmiyyətlidir. Çünki baş verə biləcək istənilən fövqəladə hadisə zamanı bütün bunlar çoxsaylı insan itkisinin qarşısını alır. İdarə, müəssisə və təşkilatlarda mütəmadi olaraq bu sahədə qrup məşğələləri keçirməyimizin əsas məqsədi də budur. Bu məşğələlərdən sonra həm də psixoloji baxımdan hazırlanan insanlar istənilən hadisə zamanı özünü itirmir, təlaşa qapılmadan özlərini xilas edə, hətta başqalarına da yardım göstərə bilirlər. Məsələnin əhəmiyyəti nəzərə alınaraq istiqamətindən asılı olmayaraq, Naxçıvanda fəaliyyət göstərən bütün idarə, müəssisə və təşkilatlarda mülki müdafiə işinin təşkili diqqət mərkəzində saxlanılır.

“Tarixən hər bir xalq özünün xoşbəxt gələcəyinə olan ümidlərini gənclərə bağlayır. Dünyanın istənilən ölkəsində gənclər sosial-iqtisadi inkişafın aparıcı qüvvəsidir. Bundan başqa, müxtəlif səpkili fövqəladə hadisələr zamanı gənclərin düzgün addımlar atmağı vaxtında öyrənmələri, ümumilikdə, cəmiyyətimiz üçün də əhəmiyyətlidir. Buna görə də biz maarifləndirici tədbirlərə lap elə məktəbəqədər tərbiyə müəssisələrindən başlayırıq. Ümumtəhsil məktəbləri, orta ixtisas təhsili müəssisələri və ali təhsil ocaqlarında təhsil alan tələbə və şagirdlərlə mütəmadi görüşlər keçirir, onlarda təhlükəsiz həyat anlayışının formalaşması üçün çalışırıq”, – deyən Azadə Cəfərova qeyd edir ki, bağçaların azyaşlı fidanları ilə “Fövqəladə hallar uşaqların gözü ilə” adlı əməli tədbirlər də keçirilir. Aparılan söhbətlərdə dəcəllikləri ilə hansı qəzalara səbəb ola biləcəkləri onlara izah olunur. Müşahidələrimizə əsaslanıb deyə bilərəm ki, belə tədbirlərdən sonra uşaqlar həmin hərəkətlərə yol vermirlər. Bundan əlavə, rəsm və əl işləri sərgiləri də təşkil olunur. Balacalar hazırladıqları səhnəciklərdə isə yanğın, zəlzələ, sel, subasma və radioaktiv zəhərlənmə hallarında necə davranacaqlarını, özlərini necə müdafiə edəcəklərini nümayiş etdirirlər.

Azadə xanım ümumtəhsil məktəblərində də mütəmadi nümunəvi dərslərin, “Fövqəladə hallar məktəblilərin gözü ilə” adlı əməli tədbirlərin, viktorinaların keçirilməsindən də ətraflı bəhs edərək deyir ki, bu günün tələbəsi, gələcəyin hansısa peşə sahibidir. İxtisasından asılı olmayaraq, hər bir gəncin mülki müdafiə sahəsində məlumatlandırılması təhlükəsiz cəmiyyət üçün əsas amil sayılır. Ona görə də belə tədbirlərin həyata keçirilməsi əhəmiyyətlidir. Sevindirici haldır ki, belə tədbirlər səhiyyə və mədəniyyət müəssisələrində də müntəzəm şəkildə təşkil olunur.

Müsahibimin sözlərinə görə, artıq iki ilə yaxındır ki, Naxçıvan Dövlət Televiziyasında aparıcısı və müəllifi olduğu “Təhlükəsiz həyat” adlı veriliş yayımlanır, bu yolla cəmiyyətdə aktual olan təhlükəsizlik məsələləri auditoriyaya çatdırılır. Bu yaxınlarda “Hər bir ailə fövqəladə hallara hazır olmalıdır” adlı metodik vəsaiti və “İlk tibbi yardım” kitabçasını yekunlaşdırdığını qeyd edən Azadə Cəfərova bildirir ki, bu nəşrlərdə hər bir ailə üzvünün fövqəladə hallarda davranış qaydaları və ilk tibbi yardım üsulları göstərilib. “Fövqəladə halların psixoloji aspektləri” adlı metodik vəsaiti isə tamamlamaq üzrədir. Həmin nəşrdə ekstremal vəziyyətlərdə vətəndaşlarımızın psixoloji gərginlik yaşamaması üçün dəyərli tövsiyələr öz əksini tapacaq.

Bu gün müxtəlif peşələrə sahib olan hər kəs öz sahəsində nümunəvi işlər görməyə çalışır, bu yolla ölkəsinə, xalqına xidmət edir. Bu, hər kəsin vətəndaşlıq borcudur. Söhbət insanların sağlamlığından, həyatından gedirsə, məsələ bir qədər də ciddiləşir. Xüsusən də istənilən təhlükəli vəziyyətlərdə, qəza və fəlakətlər zamanı hər bir insan nə etmək lazım olduğunu bilməlidir. Belə mühüm məsələlərlə bağlı maarifləndirmə işlərinin düzgün təşkilində Azadə Cəfərova kimi gənclərimizin nümunəvi fəaliyyətləri isə hər birimizdə qürur doğurur.

**✍ Ramiyyə ƏKBƏROVA**

## “Xəbərlər” rus dilində də yayımlanır




Avqustun 7-dən Naxçıvan Dövlət Televiziyasının efirində “Xəbərlər”in rus dilində yayımına başlanılıb. Hər həftənin çərşənbə axşamı saat $21^{00}$-da efirə təqdim olunan rus dilində “Xəbərlər” proqramında həftə ərzində muxtar respublikanın sosial-iqtisadi və ictimai-mədəni həyatında baş verən hadisələr rusdilli auditoriyaya təqdim olunacaq.

“Xəbərlər”in rus dilində yayımı muxtar respublikanın daha geniş məkanda tanıdılmasına, informasiya blokadasının tam yarılmasına, turizm imkanlarının daha geniş şəkildə təbliğinə xidmət edəcək.

Xatırladaq ki, ötən ildən etibarən hər həftənin bazar ertəsi günü saat $21^{00}$-da “Xəbərlər”in ingilis dilində də yayımı həyata keçirilir.

Qeyd edək ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri 2018-ci il fevralın 6-da “Naxçıvan Dövlət Teleradiosunun maddi-texniki bazasının möhkəmləndirilməsi və yaradıcılıq işinin təkmilləşdirilməsi ilə bağlı “Tədbirlər Planı”nın təsdiq edilməsi barədə Sərəncam imzalayıb. Həmin sərəncama əsasən “Nuhçıxan” İnformasiya Agentliyi yaradılıb, agentliyin saytı istifadəyə verilib, yeni alınan yayım və çəkiliş avadanlıqları hesabına teleradionun maddi-texniki bazası gücləndirilib. Naxçıvan Dövlət Televiziyasının efir vaxtı daha bir saat artırılaraq 19 saata çatdırılıb. “Xəbərlər”in rus dilində yayımı da sözügedən Tədbirlər Planının icrası istiqamətində görülən işlərin davamıdır.

**Xəbərlər şöbəsi**

## Film nümayişi maraqla qarşılanıb

Muxtar respublikada məhdud fiziki imkanlı şəxslərin reabilitasiyası və cəmiyyətə inteqrasiyası diqqət mərkəzində saxlanılır. Bu kateqoriyadan olan məktəbli uşaqların yay tətili dövründə asudə vaxtlarının səmərəli təşkili məqsədilə hazırlanmış qrafik əsasında ardıcıl tədbirlər davam etdirilir.

Avqustun 8-də Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi və Mədəniyyət nazirliklərinin birgə təşkilatçılığı ilə Naxçıvan Dövlət Film Fondunda sağlamlıq imkanları məhdud uşaqlar üçün “Şərikli çörək” filmi nümayiş etdirilib.

Filmə 50-dək sağlamlıq imkanı məhdud uşaq baxıb.

***Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti***

## Kursantlar muzeylərdə oldular



Əlahiddə Ümumqoşun Orduda qoşun təcrübəsi keçən Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin kursantları Naxçıvan Muxtar Respublikasının gəzməli-görməli, tarixi-mədəni yerlərinə və muzeylərinə ekskursiyaya aparılıblar. Onlar Heydər Əliyev Muzeyində, “Xan Sarayı” Dövlət Tarix-Memarlıq, Mömünə Xatın və Açıq Səma Altında Muzey Kompleksində, Xatirə Muzeyində, “Naxçıvanqala” Tarix-Memarlıq Muzey Kompleksində, Dövlət Bayrağı Muzeyində, Duzdağ Fizioterapiya Mərkəzində olublar. Kursantlar, həmçinin muxtar respublikanın bölgələrində yerləşən tarix-diyarşünaslıq muzeylərini, tarixi abidələri ziyarət ediblər.

Kursantlar Əlahiddə Ümumqoşun Ordunun ön xətdə yerləşən hərbi hissə və bölmələrində şəxsi heyətin sosial-məişət şəraiti ilə tanış olub, səngər və mövqelərdə aparılan döyüş növbətçiliyini yaxından müşahidə ediblər.

## “Yay məktəbi” davam edir



Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Bilik Fondunun təşkilatçılığı ilə Gənclər və İdman Nazirliyi, Gənclər Fondu, Naxçıvan Dövlət Texniki Kolleci, Həmkarlar İttifaqları Şurası, Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatı tərəfindən Ağbulaq İstirahət Mərkəzində gənclərin növbəti “Yay məktəbi” təşkil olunub.

Əvvəlcə iştirakçılar intellektual oyunlar ilə öz biliklərini sınayıb, voleybol, futbol və stolüstü idman oyunları oynayıblar. Onlar “Girdab” bədii, “Dahi şəxsiyyət” və aprel döyüşlərindən bəhs edən sənədli filmlərə baxıblar. İstirahət müddəti gənclərin “Şəfa” bulağına və Ağbulaq kəndi ərazisinə gəzintisi təşkil edilib. Onlar Şahbuz Rayon Mədəniyyət Şöbəsinin musiqiçiləri tərəfindən verilən konsert proqramına baxıblar. Gənclər hazırlanmış səhnəcikləri nümayiş etdirib, sonuncu gün məktəb iştirakçıları arasında fotomüsabiqə keçirilib.“Yay məktəbi”ndə fəal iştirak edən, fotomüsabiqədə və keçirilən yarışlarda qalib olan iştirakçılara sertifikatlar təqdim edilib. İştirakçıların istirahət müddəti ərzində sağlamlıqlarının qorunması və onlara ilkin tibbi yardım göstərilməsi də diqqət mərkəzində saxlanılıb.

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***

## Yeni tədris dövrü başlayıb



Əlahiddə Ümumqoşun Ordunun birləşmə, hissə və bölmələrində yeni tədris dövrü başlayıb.

Döyüş hazırlığı üzrə gecə və gündüz vaxtlarında bölmələr həyəcan siqnalı ilə məşq edtirilir. Bu, şəxsi heyətin praktik vərdişlərinin, komandirlərin bölmələri idarəetmə bacarıqlarının və bölmələrin uzlaşmış fəaliyyətlərinin daha da təkmilləşdirilməsinə xidmət edir. Bu məqsədlə döyüş şəraitinə maksimum yaxınlaşdırılmış şərtlərlə praktik təlim və məşğələlərin keçirilməsi davam etdirilir.

**Nəriman NƏCƏFOV**

## Dövlət rüsumunun məbləğləri müəyyənləşib

“Dövlət rüsumu haqqında“ Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının 2018-ci il 12 iyun tarixli 1187-VQD nömrəli Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 26 dekabr tarixli 621 nömrəli Fərmanında dəyişikliklər edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 26 iyun tarixli Fərmanının 1.3.1-ci yarımbəndinin icrası ilə bağlı normativ-hüquqi akt hazırlanıb. Dövlət rüsumu haqqında Azərbaycan Respublikası Qanununun 18.65.3-1-ci maddəsinə uyğun olaraq, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 31 iyul 2018-ci il tarixli Qərarına əsasən 2018-ci il üçün fiziki şəxslər tərəfindən minik avtomobillərinin özgəninləşdirilməsi haqqında müqavilələrin Azərbaycan Respublikası Daxili İşlər Nazirliyində minik avtomobillərinin dövlət qeydiyyatına alınmasına görə dövlət rüsumunun məbləğləri müəyyən edilib. Minik avtomobillərinin, sürücünün oturacaq yeri də daxil olmaqla oturacaq yerlərinin sayı doqquzdan çox olmayan avtonəqliyyat vasitələrinin dövlət qeydiyyatına alınmasına görə dövlət rüsumunun məbləğləri minik avtomobillərinin istehsal tarixi və mühərrikinin həcmi nəzərə alınmaqla aşağıdakı kimidir:

– 2000 kubsantimetrədək olan minik avtomobillərinin dövlət rüsumunun məbləği: mühərrikin həcminin hər kubsantimetrinə görə – 0.05 manat

– 3000 kubsantimetrədək olan minik avtomobillərinin dövlət rüsumunun məbləği: 100 manat + mühərrikin həcminin 2001-3000 kubsantimetr hissəsi üçün hər kubsantimetrə görə – 0.1 manat

– 4000 kubsantimetrədək olan minik avtomobillərinin dövlət rüsumunun məbləği: 200 manat + mühərrikin həcminin 3001-4000 kubsantimetr hissəsi üçün hər kubsantimetrə görə – 0.2 manat

– 5000 kubsantimetrədək olan minik avtomobillərinin dövlət rüsumunun məbləği: 400 manat + mühərrikin həcminin 4001-5000 kubsantimetr hissəsi üçün hər kubsantimetrə görə – 0.3 manat

– 5000 kubsantimetrdən çox olduqda isə 1500 manat

Eyni zamanda minik avtomobillərinin istehsal tarixindən asılı olaraq onların dövlət qeydiyyatına alınmasına görə dövlət rüsumunun məbləğlərinə aşağıdakı əmsallar tətbiq edilir:

– istehsal tarixi 4 ilədək olan minik avtomobillərinə – 1.0

– istehsal tarixi 4 ildən 10 ilədək olan minik avtomobillərinə – 0.8

– istehsal tarixi 10 ildən çox olan minik avtomobillərinə – 0.3

**Ayaz İSMAYILOV**

***Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin Dövlət Yol Polisi İdarəsinin Təbliğat üzrə baş inspektoru, polis baş leytenantı***


**ŞƏRQ qapısı**

**Baş redaktor:** MEHRİBAN SULTANOVA

**Ünvan:** AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 1.

Telefonlar: Məsul katib: 545-62-47

Şöbələr: 545-81-44, 545-51-18

Müxbirlər: 545-75-21, Faks: 544-52-52

E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

*Nömrəyə məsul:* Gülcamal Tahirova

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1490. Sifariş № 570